Vəkillər Kollegiyasının Sədri

cənab Anar bağırova

Bakı şəhəri, Yasamal rayonu, C.Cabbarlı ev 4, mənzil 6 ünvanda qeydiyyatda olan Həmidova Rəfiqə Mirzə qızı tərəfindən

051 857 21 88

# TƏŞƏKKÜR MÜRACİƏTİ

**Hörmətli Anar Müəllim,**

Mən, Həmidova Rəfiqə Mirzə qızı anam Məmmədova Gövhər Bayram qızının vərəsəsiyəm. Hazırda işim Şəki İnzibati Məhkəməsindədir. Vəkillər Kollegiyasına müraciət etdim. Müraciətimə dərhal diqqət yetirərək yüksək peşəkarlığı ilə seçilən vəkil Hacıyeva Tünzalə Arif qızını yönəltdiyiniz üçün sizə xüsusi təşəkkürümü bildirirəm. Tünzalə xanım mənim işimə çox məsuliyyətli yanaşdı. Məni ofisə dəvət edərək bütün sənədlərimi diqqətlə araşdırdı. Mənim adımdan məhkəməyə iddia ərizəsi hazırladı və elektron kabineti yaradaraq işimin gedişini izləməyi asanlaşdırdı. Hazırda işim məhkəmədə icraatdadır. Nə vaxt da nə iş lazım olsa Tünzalə xanım canla – başla savadlı şəkildə yorulmadan həll edir. Bu müddət ərzində hiss etdim ki, peşəkar vəkilin fəaliyyəti nə deməkdir və vəkillər kollegiyasının vətəndaşlara göstərdiyi qayğı necə real nəticələr verir.

Hörmətli Anar müəllim, sizin rəhbərliyiniz altında belə vicdanlı, diqqətli və savadlı vəkillərin fəaliyyət göstərməsi biz vətəndaşlar üçün böyük güvən yaradır. Mənə göstərilən dəstəyə və Tünzalə Hacıyeva kimi vəkillərin vtəəndaşlara keyfiyyətli hüquqi yardım göstərməsinə şərait yaratdığınız üçün sizə dərin təşəkkürümü bildirirəm.

**İmza:** Həmidova Rəfiqə Mirzə qızı

**02.12.2025-ci il**

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 4632
«02» 12 2025 il